AQTA

**Azərbaycan Respublikası**

**Qida Təhlükəsizliyi Agentliyi sədrinin**

**"13" fevral 2025-ci il tarixli**

**3-2ü-12 nömrəli əmri ilə təsdiq edilmişdir.**

# KORRUPSİYAYA QARŞI MÜBARİZƏ SİYASƏTİ

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra - Agentlik) korrupsiya və onun bütün təzahür formaları, o cümlədən rüşvətxorluq hallarının qarşısının alınması istiqamətində qurumun bütün əməkdaşları iltizamlandırılmışdır. Belə ki, Agentliyin bütün işçilərinə birbaşa və ya dolayı yolla, şəxsən və ya üçüncü şəxslər vasitəsilə hər hansı korrupsiya əməlləri törətmək, rüşvət təklif etmək, vermək, vəd etmək, istəmək və almaq qadağandır. Bunlar aşağıda qeyd olunanlarla ifadə edilməkdədir:

- **Rüşvət verməyə (aktiv rüşvətxorluq) qadağa** – xidməti vəzifəsinin icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi və ya belə hərəkətin edilməsindən imtina olunması müqabilində vəzifəli şəxsə onun özü və ya üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair nemət, imtiyaz və ya güzəşt təklif olunması, vəd edilməsi və ya verilməsinin qadağan edilməsi;
- **Rüşvət almağa (passiv rüşvətxorluq) qadağa** – rüşvət alma, yəni vəzifəli şəxsin xidməti vəzifəsinin icrası ilə əlaqədar hər hansı hərəkətə (hərəkətsizliyə) görə, eləcə də xidmət üzrə ümumi himayədarlıq və ya laqeydlik müqabilində özü və yaxud üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair neməti, imtiyazı və ya güzəşti istəməsi və ya alması, yaxud bu barədə təklif və ya vədi qəbul etməsinə qadağa;
- **Rüşvətxorluqda vasitəçiliyin qadağan edilməsi** – rüşvətin, rüşvət verənin və ya rüşvət alanın adından digərinə birbaşa və ya dolayı ötürülməsinin qadağan edilməsi**;**
- **Kommersiya rüşvətxorluğunun qadağan edilməsi** – təşkilatın vəzifəli şəxsi olmayan işçisi (təşkilati və ya inzibati vəzifələrin yerinə yetirilməsi ilə bağlı təşkilatda daimi və ya müvəqqəti və ya xüsusi səlahiyyətlə vəzifə tutan və ya müəyyən edilmiş qaydada hüquqi əhəmiyyətli hərəkətlər etmək səlahiyyəti verilmiş şəxs) tərəfindən öz işi ilə bağlı, təşkilatın və ya qarşı tərəfin maraqlarına zərər vura bilən, bilərəkdən edilən hər hansı fəaliyyətə (və ya fəaliyyətsizliyə) görə, rüşvət verənin maraqları naminə pul, qiymətli kağızlar, digər əmlak və ya mülkiyyət xarakterli xidmətlərin alınmasının qadağan edilməsi;
- **Qeyri-qanuni hədiyyələrin qəbulunun qadağan edilməsi** – təşkilatın işçisinin xidməti vəzifələrinin qərəzsiz icrasına təsir edə bilən və ya bu cür təəssürat yaradan və ya onun vəzifələrinin icrası müqabilində mükafat qismində verilən və ya belə mükafat təəssüratı yaradan hədiyyələrin özü və ya digər şəxslər üçün tələb edilməsinin və ya qəbul edilməsinin qadağan edilməsi;
- Qurumun bütün işçilərinin korrupsiyaya qarşı mübarizə haqqında qanunvericiliyin tələblərinə, habelə korrupsiya və rüşvətxorluğun bütün formalarını qadağan edən digər bütün normativ tələblərə əməl etmələri;

- Korrupsiyaya qarşı mübarizə siyasətinin, bu sahədə dövlət başçısının göstərişləri və buna müvafiq dövlət proqramlarının tələbləri əsasında müəyyən edilməsi;
- Qeyd olunanları nəzərə alaraq korrupsiyaya qarşı mübarizə çərçivəsində maraqlı tərəflərin ehtiyac və gözləntilərinin, həmçinin dövlət proqramlarının hər tərəfli öyrənilməsi, təhlili, qiymətləndirilməsi, öhdəliklərin müəyyən edilməsi və bu öhdəliklər əsasında müvafiq məqsəd və hədəflərin təyini və icrasının təmin edilməsi;
- Tətbiq edilən Korrupsiyaya qarşı mübarizə idarəetmə sisteminin, ISO/EN və kontekstin inkişafı tendensiyasından asılı olaraq digər beynəlxalq standartların tələblərinin icrasının qurum rəhbərliyinin bilavasitə nəzarətində saxlanılması və praktiki olaraq təmin edilməsi;
- Korrupsiya şübhələri ilə bağlı şübhələri çatdıranların müdafiə prosedurlarının tətbiqi üzrə Agentliyin ayrıca "Korrupsiya şübhələri üzrə məlumatlandırma siyasəti"nin formalaşdırılması və tətbiqi;
- Fəaliyyət nəticələrinin yaxşılaşdırılması, həmçinin İdarəetmə Sisteminin yararlılığının, adekvatlığının və effektivliyinin davamlı olaraq yaxşılaşdırılması məqsədilə hesabatlılığın təmin edilməsi, tədbirlərin planlanması, yerinə yetirilməsinin təmin edilməsi, zəruri resurslarla təminatın həyata keçirilməsi;
- Yuxarıda qeyd olunanların təmini üçün Agentliyin korrupsiyaya qarşı icraçı bölmənin funksiyalarını Agentliyin Daxili nəzarət sektoruna həvalə edilməsi və bu sahədə vəzifə, səlahiyyət və öhdəliklərin sektorun əsasnaməsində, əməkdaşların vəzifə təlimatlarında və aidiyyəti digər sənədlərdə əks edilməsi;
- Agentliyin və onun əməkdaşları dünyanın istənilən ölkəsində beynəlxalq hüququn ümumqəbul olunmuş prinsip və normalarına və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, korrupsiyaya qarşı mübarizə haqqında qanunvericiliyə, habelə bu Siyasətin tələblərinə əməl etməlidirlər. Əks təqdirdə yaranmış hal-vəziyyətdən asılı olaraq inzibati və ya cinayət məsuliyyətinə cəlb etmə proseduru icra edilə bilər.